# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 384** **Bakı şəhəri, 11 sentyabr 2018-ci il**

**"Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"nin 14-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1108; 2014, № 8, maddə 1006; 2017, № 4, maddə 638) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiya üzvlərinin sayı 7 (yeddi) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

## Kollegiyanın sədri

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi

## Kollegiyanın üzvləri:

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin təşkilat-metodika və beynəlxalq əlaqələr şöbəsinin müdiri

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin komplektləşdirmə, idarə arxivləri və kargüzarlıq şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru

Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivinin direktoru".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***